*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 iyul 2020-ci il № 41 (2459) Qiyməti 30 qəpik


# Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

*İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclasda çıxış edib.*

- Dünən günorta saatlarında Ermənistan Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törədib. Birinci dəfə deyil ki, dövlət sərhədində Ermənistan tərəfindən hərbi təxribatlar törədilir. Son bir neçə ay ərzində bu hərbi təxribatlar nəticəsində bizim hərbçilərimiz, eyni zamanda, mülki şəxslər həlak olmuşdur. Dünən günorta saatlarında onların növbəti təxribatı nəticəsində bir neçə hərbçimiz həlak olmuşdur. Qəflətən bizim hərbi postumuza artilleriya atəşi açılıb və bu çirkin əməl nəticəsində hərbçilərimiz həlak olub və yaralanıb. Allah şəhidlərimizə rəhmət etsin, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Deyə bilərəm ki, Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmışdır, adekvat cavab verilmişdir. Hərbçilərimizin qisası alınmışdır. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməmişlər.

Bu gün sərhəddə gərgin vəziyyət davam edir. Dünən gecə bütün aidiyyəti qurumlarla, komandanlarla əlaqədə idim. Bu gün səhər tezdən də mənə operativ məlumat verilib və sərhəddə vəziyyət sabitləşməyib. Bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır. Çünki, məhz Ermənistan rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətinə görə belə hadisələr baş verir. Bir tərəfdən, beynəlxalq ictimaiyyətə müraciət edir və Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək xahiş edir. Digər tərəfdən, hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək istəyir, mövqelərimizi zəbt etmək istəyir, mülki əhalini, kəndlərimizi atəşə tutur. Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərimizi qoruyacaq. Dünən günorta saatlarında və bu gün gecə düşmənə vurulmuş sarsıdıcı zərbələr bir daha onu göstərdi. Həlak olan hərbçilərimizin qisası alındı və onların qanı yerdə qalmayıb və qalmayacaq.



Bu çirkin əməllərə əl atmaq onların təcavüzkar siyasətinin təzahürüdür. Bu siyasəti məntiqlə izah etmək mümkün deyil. Çünki, bu siyasət olduqca ziddiyyətlidir və bu siyasət Ermənistan üçün böyük təhlükə mənbəyidir. Çünki, mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin.

Beynəlxalq təşkilatlara müvafiq müraciətlər edilib və operativ vəziyyət imkan verən kimi biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin hərbi nümayəndələrini həmin əraziyə dəvət edəcəyik, onlar öz gözləri ilə vəziyyəti görsünlər. Görsünlər ki, kim bu hərbi təxribatı törədib. Bu hərbi təxribat nəticəsində nələr baş verib və kim vəziyyətin gərginləşməsinə cavabdehlik daşıyır. Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq.

Bildiyiniz kimi, Ermənistanda daxili vəziyyət artıq böhranlı həddə çatıb. Daxili çaxnaşmalar geniş vüsət alıb. Eyni zamanda, ölkəmizin son vaxtlar əldə etdiyi beynəlxalq uğurlar onları çox narahat edir və onlarda paxıllıq hissini daha da gücləndirib. Xüsusilə, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu fəaliyyətimiz, son müddət ərzində bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilmiş açıqlamalar, qəbul edilmiş qərarlar, ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi, əlbəttə ki, Ermənistanın münaqişə ilə bağlı mövqelərinə çox ciddi zərbə vurubdur. Eyni zamanda, mötəbər kürsülərdən müntəzəm olaraq həm münaqişənin tarixi ilə, həm bölgənin tarixi ilə bağlı gətirdiyimiz konkret faktlar, inandırıcı əsaslandırmalar, əlbəttə ki, onların təbliğatını alt-üst edir. Artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bunu təsdiqləyən kifayət qədər sənədlər var və bu sənədləri biz indi geniş beynəlxalq ictimaiyyətə təqdim edirik. Eyni zamanda, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bunu da təsdiqləyən kifayət qədər çox beynəlxalq sənədlər və açıqlamalar var. O cümlədən, bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "seçkilər" nəinki heç bir ölkə tərəfindən tanınmadı, hətta bütün aparıcı beynəlxalq təşkilatlar, qonşu ölkələr və bu məsələ ilə məşğul olan ölkələr bu seçkiləri pislədilər. Beləliklə, bir daha ölkəmizin ərazi bütövlüyünə dəstək ifadə olundu, bir daha açıq göstərildi ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Ona görə hazırda Ermənistanda hökm sürən hərc-mərclik və vəziyyətin böhran həddinə yaxınlaşması onları bu çirkin əməllərə sövq edibdir. Digər tərəfdən, o da sirr deyil ki, artıq uzun müddətdir ki, Ermənistan münaqişə ilə bağlı öz addımlarında xüsusilə Ermənistan-Azərbaycan dövlət sərhədini misal gətirərək belə bir rəy formalaşdırmaq istəyir ki, guya Azərbaycan Ermənistan ərazisinə hücumlar edir. Halbuki bu, yalandır. Bütün hücumlar Ermənistan tərəfindən törədilir və bunun kifayət qədər sənədləri var, videofoto sənədləri var. Azərbaycan isə sadəcə olaraq, bütün təxribatlara adekvat cavab verir. Əgər Ermənistan ərazisindən Azərbaycan mövqelərinə, Azərbaycan kəndlərinə atəş açılırsa, təbii ki, biz adekvat cavab verəcəyik və veririk. Ona görə Ermənistan bütün imkanlardan istifadə edib, eyni zamanda, saxta məlumatlar uydurub dövlət sərhədinə xüsusi diqqətin cəlb edilməsi üçün əlindən gələni edir. Dünənki hərbi təxribat bu çirkin siyasətin növbəti təzahürüdür.

Hesab edirəm ki, bu təxribatın digər səbəbi odur ki, son vaxtlar Azərbaycan beynəlxalq arenada çox böyük uğurlara imza atıb. Bizim təşəbbüsümüzlə beynəlxalq təşkilatların Zirvə görüşləri keçirilib. Bizim təşəbbüsümüzlə BMT Baş Assambleyasının xüsusi sessiyası baş tutub. Bu təklifi, bu təşəbbüsü 130-dan çox ölkə dəstəkləyib və Ermənistan bu təşəbbüsün əleyhinə çıxıb və bir daha özünü rüsvay edib, bir daha özünü dünyadan təcrid edib. Bu gün dünya gündəliyində birinci yerdə duran COVID ilə bağlı mübarizə məsələsində öz anlaşılmaz mövqeyi ilə bir daha bütün dünyanın diqqətini öz çirkin siyasətinə cəlb edib. Necə ola bilər ki, Azərbaycan bütün dünyanın bu mübarizədə birləşməsini tələb etdiyi bir vaxtda Ermənistan bunun əleyhinə çıxıb.

Ona görə beynəlxalq arenada Ermənistan demək olar ki, bütün dayaqlarını itirməkdədir. Daxili vəziyyət kifayət qədər gərgindir. Vəd olunan dırnaqarası çiçəklənmə, artıq hər kəs tərəfindən başa düşülür ki, bu, xülyadır, bu, yalandır. Əlbəttə ki, dünənki hadisə ilə bağlı Ermənistan rəsmi orqanlarının açıqladığı məlumat yalanın növbəti əlamətidir. Bu məlumatda onlar məsuliyyəti Azərbaycanın üzərinə yıxmaq istəyirlər. Halbuki buna heç bir əsas yoxdur və bir daha demək istəyirəm ki, - bütün müstəqil ekspertlər bunu təsdiq edə bilər, - heç bir əsas olmadan bizim hərbi postumuza artilleriya zərbəsi endirilib. Məhz bunun nəticəsində bizim hərbçilərimiz həlak olub. Onların gücü ona çatır ki, ancaq mülki əhalini atəşə tutsunlar, ya da ki, qəflətən bizim hərbi postumuza atəş açsınlar. Bunu da onlar etdilər və bir daha öz çirkin və məkrli mahiyyətlərini ortaya qoydular.

Mən bir daha demək istəyirəm ki, dünən və bu gecə düşmənə adekvat cavab verilib. Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik.

Sonra Təhlükəsizlik Şurasının iclası qapalı rejimdə davam edib.

AZƏRBAYCAN ORDUSU

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

*Ona görə bütün bu amillər - orduya, zabitə, əsgərə qayğı, məişət, xidmət şəraitinin yaxşılaşdırılması və ordumuzun silah-sursat, texnika ilə təchizatı, bir də əlbəttə ki, döyüş qabiliyyətinin artırılması, bax, bunlar bu əsas amillərdir. Əlbəttə ki, vətənpərvərlik. Ona görə hər bir hərbi hissədə ideoloji tərbiyə yüksək səviyyədə təşkil edilməlidir. Buna bütün rəhbər heyət cavabdehlik daşıyır ki, bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda böyüsünlər, müstəqilliyin qədrini bilsinlər...*

*Ona görə mən sizə tapşırıram, bütün hərbi hissələrdə ideoloji vəziyyətə xüsusi əhəmiyyət verilməlidir. Ölkəmizin tarixi - həm qədim tarixi, həm də müasir tarixi ilə əlaqədar hər bir əsgərdə, zabitdə dolğun təəssürat olmalıdır.*

# Qüdrətli Azərbaycan Ordusu döyüş əzmi, qələbə ruhu və sağlam mənəvi-psixoloji mühitlə də silahlanıb



Əsgərin döyüş ruhu, mənəvi-psixoloji durumu, ideoloji hazırlığı, psixoloji dözümlülüyü yetərincə deyilsə, fiziki gücün, say çoxluğunun, güclü silahın heç bir əhəmiyyəti qalmır. Vətəni qorumağı, düşmənə qalib gəlməyi qarşısına məqsəd qoyan əsgərin ideoloji gücü, mənəvi qüdrəti silahının imkanlarından maksimum bəhrələnməsinə böyük təsir edir və qarşıya qoyulan tapşırıqların uğurlu icrasında mühüm rol oynayır. Əsgərin mənəvi gücü, vətənpərvərliyi və ideoloji hazırlığı onu daha güclü edir və düşmənin daha tez demoralizə olunmasına, darmadağın edilməsinə imkan verir.

Əsgərin dünyagörüşü hərbi vətənpərvərlik hissi, Vətən sevgisi əsasında formalaşır. Bu amilləri düşüncələrə həkk etdirən isə vahid ideologiya ətrafında birləşmək və bu ideologiyanın cazibəsində səfərbər olmaqdır. Bizim üçün bu ideologiya azərbaycançılıq məfkurəsidir. Bu, harada və hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qürur duyduğu ideologiyadır. Azərbaycançılıq ideologiyasının gücü, qüdrəti də məhz budur - hamımızı birləşdirmək, həmrəy, həmfikir etmək, bir amala yönəltmək.

Ali Baş Komandan hərbi qulluqçularla sonuncu görüşündəki çıxışında da hərbi vətənpərvərlik tərbiyəsindən danışaraq ideoloji işin milli-mənəvi dəyərlərimizə, tarixi ənənələrimizə istinadən aparılmasının əhəmiyyətini xüsusi qeyd etdi. Dövlətimizin başçısının tövsiyələri ordumuzda bir fəaliyyət proqramı olaraq qəbul edilib. Azərbaycan Ordusunun uğurlarının təməlində duran vacib amillərdən biri də şəxsi heyətin yüksək ideoloji, mənəvi-psixoloji hazırlığıdır. Tarix göstərir ki, düşmən üzərində qələbənin qazanılmasında döyüşçülərin ideoloji hazırlığının səviyyəsi, psixoloji durumunun vəziyyəti peşəkarlıqla, silahla və hərbi texnika ilə eyni dərəcədə əhəmiyyət kəsb edir.

Son illərdə ordumuzda aparılan irimiqyaslı islahatlar nəticəsində hərbçilərimizin mənəvi-psixoloji vəziyyəti, habelə hərbi vətənpərvərlik əhval-ruhiyyəsi yüksək səviyyədədir. Azərbaycan əsgəri vətənpərvərdir, yüksək mənəvi-psixoloji hazırlığa malikdir. Hərbi qulluqçularımız dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatələnib. Əsgər və zabitlərimiz üzərinə düşən məsuliyyəti yetərincə düzgün dəyərləndirirlər, vətəndaşlıq borcuna, hərbi tapşırıqların icrasına şüurlu yanaşırlar.

Ali Baş Komandanın tövsiyələrinə müvafiq olaraq Azərbaycan Ordusunda bu istiqamətdə fəaliyyətlər daha da genişləndirilir. Şəxsi heyətin ideoloji, döyüş, mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi də, hərbi intizamın möhkəmləndirilməsi də Müdafiə Nazirliyi rəhbərliyinin əsas prioritetlərindəndir. Müharibə şəraitində yaşayan bir ölkə üçün ən vacib məqamlardan biri ordunun şəxsi heyətinin və ümumiyyətlə vətəndaşların sağlam mənəvi-psixoloji duruma, ruh yüksəkliyinə, özünə inama və vətənpərvərlik hisslərinə malik olmasıdır. Bu gün Azərbaycan cəmiyyətində, ordumuzda məhz belə bir əhval-ruhiyyə mövcuddur. Bütün bunların nəticəsidir ki, xalqımız ordumuza istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir bir qüvvə kimi böyük inam bəsləyir.



Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təmas xəttində yerləşən bölmələrimizə müntəzəm səfərləri, əsgərlərimizlə görüşləri hərbçilərimizi Vətəni qorumağa, torpaqlarımızı işğaldan azad etməyə ruhlandırır. Bununla da ordumuzun güclü potensialı bizi əsas məqsədimizə - işğal edilən torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır. Dövlət bütün imkanlarını bu istiqamətdə səfərbər edir.

Azərbaycan Ordusunun döyüş hazırlığı, ruh yüksəkliyi, mənəvi-psixoloji durumu və peşəkarlığı düşmən ordusundan qat-qat üstündür.

Döyüş əzmini, qələbə ruhunu yüksək səviyyədə saxlamaq məqsədilə ordumuzda ümummilli liderimiz Heydər Əliyevin zəngin həyat yolu və fəaliyyəti, dövlət və ordu quruculuğu, milli şüurun dirçəlişi, milli ideologiyanın inkişafı, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi və digər sahələri əhatələyən siyasi irsi dərindən öyrənilir və hərbçilər arasında təbliğ edilir. Ulu öndər Heydər Əliyev ordunun nizami ordu kimi formalaşmasını təmin etdi, hərbi hissələrdə mənəvi ab-hava sağlamlaşdırıldı, şəxsi heyətin vahid komandanlıq altında idarə edilməsi təmin edildi. Nəzəri və praktiki əsaslara söykənən ordu quruculuğunun formalaşması prosesi uğurla davam etdirildi. Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi xətti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev uğurla davam etdirir. Bütün sahələrdə olduğu kimi, Azərbaycan Ordusunda da dinamik inkişaf gedir. Dövlətimizin başçısının diqqəti sayəsində əsgərin döyüş əzmi daha da artır. Ali Baş Komandanın dəfələrlə cəbhə bölgələrinə səfəri əsgər üçün də, ictimaiyyət üçün də ən yaxşı örnəkdir.

Ölkə başçısının dövlətimizin müstəqilliyinin qorunub saxlanması, qüdrətlənməsi istiqamətində apardığı daxili və xarici siyasət ordunun qüdrətli bir qüvvəyə çevrilməsi üçün daim təbliğ edilir. Ali Baş Komandanın Azərbaycan Ordusunun qarşısında qoyduğu tapşırıqlar bütün şəxsi heyətə çatdırılır.

Azərbaycan Ordusunda aparılan ideoloji işi, mənəvi-psixoloji hazırlığı, şəxsi heyətdə yüksək əhval-ruhiyyə və ruh yüksəkliyini təmin etməyə yönəldilən hərbi vətənpərvərlik tədbirlərinin bir məqsədi var - işğal altında olan torpaqlarımızı azad edərək ərazi bütövlüyümüzü təmin etmək! Azərbaycan Ordusunun şəxsi heyəti istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır, qadirdir və bunun üçün bütün imkanlara malikdir.



Ordunun qarşısında duran vəzifələri uğurla yerinə yetirməsi üçün əsas şərtlərdən biri şəxsi heyətin mənəvi-psixoloji vəziyyətidir. Ölkəmizdə sosial-iqtisadi siyasətin nəticəsi olaraq ordumuzun şəxsi heyətində də döyüş hazırlığı və mənəvi-psixoloji hazırlıqda yeni uğurlar qazanmaq üçün ruh yüksəkliyi yaradılmışdır.

Aprel döyüşləri və Günnüt əməliyyatında əldə etdiyimiz uğurlar, qazandığımız qələbələr şəxsi heyətin döyüş əzmini, qələbə ruhunu daha da yüksəltdi. Silahlarla yanaşı, bütün müsbət xüsusiyyətlərlə - ideoloji möhkəmlik, psixoloji dözümlülük, mənəvi saflıq, döyüş əzmi, qələbə ruhu, Vətən sevgisi ilə də silahlanan Azərbaycan əsgərinin qarşısında düşmən ordusu tab gətirmədi, darmadağın edildi. Azərbaycan Ordusunun bir neçə bölməsi düşmən qüvvələrini əzib keçdi, qələbə qazandı.

Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş əzmi, qələbə ruhu və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Çünki ordu quruculuğu dövlət üçün prioritetdir və bu işlər vahid komandanlıq, müəyyən olunmuş plan əsasında azərbaycançılıq ideologiyasına söykənərək həyata keçirilir.

Hərbi qulluqçularla sonuncu görüşündə Ali Baş Komandan İlham Əliyevin hərbi qulluqçuların ideoloji hazırlığı məsələsini xüsusi vurğulaması da dövlətimizin bu sahəyə verdiyi əhəmiyyətin, ayırdığı diqqətin təzahürüdür. Bu gün ordumuzda həyata keçirilən bütün tədbirlər azərbaycançılıq məfkurəsinə istinad edildiyini, milli-mənəvi dəyərlərə söykənildiyini, tarixi ənənələrdən qaynaqlanan vətənpərvərlik tərbiyəsinə, ideoloji işə xüsusi önəm verildiyini göstərir.

Bu uğurlu işlərin müsbət nəticəsidir ki, Hərbi anda sadiq olan şəxsi heyət dövlətinə inanır, xalqına arxalanır, qələbə əzminə, peşəkarlığına güvənərək torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı döyüş əmrinin icrasına hazır və qadir olduğunu əminliklə bildirir.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Müdafiə naziri ön xətt bölmələrində olub



8 iyul 2020-ci il. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ön xətt bölmələrində xidmət edən hərbi qulluqçularla görüşüblər.

Ali Baş Komandan cənab İlham Əliyevin son çıxışlarından irəli gələn tələbləri diqqətə çatdıran Müdafiə naziri bu tələblərin gündəlik xidməti fəaliyyətdə rəhbər tutulmasını tapşırıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əməliyyat şəraitinin vəziyyəti barədə məruzələri dinlədikdən sonra Müdafiə naziri üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib və bölmələrin daim döyüşə hazır vəziyyətdə olmasını təmin etmək məqsədilə müvafiq tapşırıqlar verib.

Düşmənlə təmas xəttindəki vəziyyəti qiymətləndirən nazir qarşıda duran vəzifələri şəxsi heyətə çatdırıb.

Bölmələrdəki şəraitlə tanış olan nazir ön xətdə xidmət edən hərbi qulluqçularla da görüşüb, onların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin dövlətimizin diqqət və qayğısı sayəsində daim davam etdirildiyini vurğulayıb.

# Düşmənin bir neçə hərbi obyekti və texnikası darmadağın edilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ermənistan silahlı qüvvələrinin bölmələri iyulun 12-si saat 22:45-dən etibarən iyulun 13-ü saat 00:40-dək iriçaplı silahlardan da istifadə etməklə Şahbuz və Culfa rayonları istiqamətində müdafiə olunan mövqelərimizi atəşə tutub.

Düşmənin atəşkəs rejimini pozması zamanı əsasən izburaxan və yandırıcı mərmilərdən istifadə etməsi ara boşluğunda olan 5 hektara qədər ərazinin yanması ilə nəticələnib.

Düşmən cavab atəşi ilə susdurulub. Əməliyyat şəraiti qoşunlarımızın tam nəzarəti altındadır.



* * *

Düşmənə qarşı görülən sərt cəza tədbirləri nəticəsində iyulun 13-ü gününün ikinci yarısında Ermənistan silahlı qüvvələrinin atəş mövqeləri, kəşfiyyat bölməsinin radiolokasiya stansiyası, hərbi avtomobil texnikası üçün saxlanc, tank, zirehli transportyor, 20 nəfərdən çox şəxsi heyəti, tabor qərargahı və hərbi infrastrukturu bölmələrimizin dəqiq atəşi ilə darmadağın edilib.

Qarşı tərəf itkilərini gizlətməklə ictimaiyyətini aldatmağa davam edir.

* * *

İyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində şiddətli döyüşlər davam edib.

Düşmənin aktiv fəaliyyətinin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri nəticəsində ona məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, müdafiəsinin dərinliyindəki ehtiyatlar və canlı qüvvəsi məhv edilib.

# Kərim Vəliyev: Düşmənin 100-ə qədər canlı qüvvəsi, çoxlu texnikası və mühüm obyektləri məhv edilib

*İyulun 13-dən 14-nə keçən gecə Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində şiddətli döyüşlər davam edib. İki sutka ərzində düşmənə sarsıdıcı atəş zərbələri endirilib. Düşmənin 100-ə qədər canlı qüvvəsi, çoxlu sayda döyüş və nəqliyyat texnikası, mühüm obyektləri məhv edilib.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev iyulun 14-də jurnalistlərə müsahibəsində deyib.

Müdafiə nazirinin müavini Kərim Vəliyev bildirib ki, bu gün səhər saatlarında döyüş zamanı general-mayor Polad Həşimov ön xətdə qəhrəmancasına şəhid olub. Onunla bir yerdə polkovnik İlqar Mirzəyev də şəhid olub. “Bu, onu göstərir ki, bizim generallar və yüksək rütbəli zabitlər əsgərlərin arxasında gizlənmirlər, döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirirlər. Təəssüf ki, döyüşlər itkisiz olmur. Müdafiə Nazirliyinin rəhbərliyi adından şəhidlərimizə rəhmət, onların ailələrinə səbir diləyirik.”



# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyəli həmkarına başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Sakarya vilayətində baş vermiş partlayış nəticəsində Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının həlak olması və yaralanması ilə əlaqədar Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Hulusi Akara başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Pirotexniki vasitələrin utilizasiyası zamanı baş vermiş partlayış nəticəsində qardaş Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının həlak olması və yaralanması xəbər məni çox kədərləndirdi.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və Allahdan səbir diləyirik. Ruhları şad, xatirələri əziz olsun. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm. Sizin acınız bizim də acımızdır.

Allah rəhmət eləsin".

# Düşmən hücumunun qarşısı alınarkən hərbi qulluqçularımız şəhid olub

İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, düşmən hücumunun qarşısını alarkən döyüşdə Azərbaycan Ordusunun hərbi qulluqçuları müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Sadıqov Vüqar Lətif oğlu və baş əsgər Məmmədov Elşad Dönməz oğlu şəhid olub.

Həkimlərimizin səyinə baxmayaraq, ağır yaralanan hərbi qulluqçumuz əsgər Daşdəmirov Xəyyam Məhəmməd oğlu da şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olanların ailələrinə başsağlığı verir və səbir diləyir. Allah rəhmət eləsin!

# Tovuz rayonu istiqamətində şiddətli döyüşlər gedir

*İyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində şiddətli döyüşlər davam edib.*

Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı bölmələrimizin gördüyü cavab tədbirləri nəticəsində böyük itkilər verən düşmən geri çəkilməyə məcbur edilib.

Döyüş zamanı müdafiənin ön xəttində olan general-mayor Həşimov Polad İsrayıl oğlu qəhrəmancasına şəhid olub.

Düşmən hücumunun qarşısını alarkən döyüşdə Azərbaycan Ordusunun aşağıda adları çəkilən hərbi qulluqçuları da şəhid olublar:

- polkovnik Mirzəyev İlqar Anzor oğlu;
- mayor Əhmədov Namiq Hajan oğlu;
- mayor Novruzov Anar Gülverdi oğlu;
- gizir Zeynallı İlqar Ayaz oğlu;
- gizir Babayev Yaşar Vasif oğlu;
- müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mustafazadə Elçin Arif oğlu.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olan hərbi qulluqçularımızın ailələrinə dərin hüznlə başsağlığı verir və səbir diləyir. Allah rəhmət eləsin!

Döyüşlərdə yaralılar da var. Onlara dərhal tibbi müdaxilə edilib və həyatları üçün təhlükə yoxdur.

Düşmənin aktiv fəaliyyətinin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri nəticəsində ona məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, müdafiəsinin dərinliyindəki ehtiyatlar və yüzlərlə canlı qüvvəsi məhv edilib.

Hazırda bu istiqamətdə vəziyyət gərgin olaraq qalır, ağır döyüşlər gedir. Qarşı tərəf mülki əhalini və yaşayış məntəqələrimizi də atəşə tutur. Düşmənə qarşı həyata keçirilən cavab tədbirləri davam edir.

Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan Ordusunun bölmələri düşmənin dayaq məntəqəsinə zərbə endirib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində iyulun 13-nə keçən gecə ərzində də gərginlik davam edib.

Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində bölmələrimizin dəqiq atəşi ilə düşmənin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsi ərazisində avtomobil texnikası və canlı qüvvəsi məhv edilib.

Döyüşdə Azərbaycan Ordusunun hərbi qulluqçusu baş leytenant Mahmudov Rəşad Rəşid oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin ailəsinə başsağlığı verir və səbir diləyir. Allah rəhmət eləsin!

Hazırda əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır. Düşmənə qarşı cəza tədbirləri həyata keçirilir.

Düşmən tərəfi itkiləri barədə məlumatları gizlədir.

# Türkiyəli gəncə Azərbaycan bayrağı hədiyyə edilib

*Dünya bayraqlarının kolleksiyasını toplayan 15 yaşlı Türkiyə vətəndaşı Ali Mert Tunçun Azərbaycana xüsusi sevgisi var. Bu marağa və bu sevgiyə görə o, Azərbaycan Müdafiə Nazirliyinə müraciət edərək Azərbaycan bayrağının ona hədiyyə edilməsini xahiş edib.*



Müdafiə nazirinin tapşırığına əsasən, Azərbaycan Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı Hərbi attaşesi polkovnik Müşfiq Məmmədov ölkəmizin Ankara şəhərindəki səfirliyində Ali, onun kiçik bacısı Defne Zeren və uşaqların valideynləri - atası Tunç Ali Kemal və anası Tunç Kevser ilə görüşüb. Səmimi görüş qonaqlara xoş təsir bağışlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycan və Türkiyə dövlətləri arasında münasibətlərin tarixindən, mədəniyyətindən, qarşılıqlı əlaqələrin inkişafından, ümummilli liderimiz Heydər Əliyevin söylədiyi kimi "Bir millət, iki dövlət" formatında əməkdaşlığımızdan bəhs edilib.

Görüşün sonunda Aliyə Azərbaycan Respublikasının Dövlət Bayrağı, ailə üzvlərinin hər birinə isə ölkəmizə məxsus müxtəlif hədiyyələr təqdim olunub.

Qonaqlar müraciətə qısa zamanda baxıldığına, Azərbaycanın Ankaradakı səfirliyinə dəvət olunduqlarına və burada şahidi olduqları səmimiyyətə, mehribanlığa görə dərin təşəkkürlərini bildiriblər.

Tunç Ali Mert və ailə üzvləri COVID-19 virusu bitdikdən sonra Azərbaycana gəlmək arzusunda olduqlarını bildiriblər.

# Milli mətbuatımız "Əkinçi" ilə başlayıb

Azərbaycan Demokratik Respublikası dövründə nəşr edilən qəzetlər də başlanğıcını "Əkinçi"dən götürmüşdü.

Hər biri "Əkinçi"nin ideoloji davamçısı olmalıydı. Rus imperiyası Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Demokratik Respublikasını ilhaq etdi. Bunu vətənsevərlər, millimənəvi ruhumuzu yaşadanlar müvəqqəti süqut bildi. İmperiya xalqın azadlıq, müstəqillik mübarizəsinin yolunda əngəllər yaratsa da, keçilməzlik yaratmağa qadir deyildi...

"Əkinçi"dən sonra yaranan "Kəşkül", "Ziya", "Kaspi" kimi qəzetlər ilk mətbu orqanımızın davamçısı kimi fəaliyyətə başladı. "Əkinçi" də daxil olmaqla o dövrün qəzetlərinin əsas missiyası maarifləndirmək idi. Cəmiyyətdə kütləvi savadsızlıq hökm sürdüyünə görə "Əkinçi"ni də, ondan sonra yaranan qəzetləri də dövrün öyrədicisi adlandırmaq olar, yəni, onlar təkcə savadsızlığa mübarizə aparmırdı, həm də ictimaiyyətə dünyagörüşü aşılayırdı...

1906-cı ildə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı da eyni missiyanı yerinə yetirirdi...

Azərbaycanda milli azadlıq hərəkatının genişlənməsində də, təşkilatlanmasında da, vahid bir qüvvəyə çevrilməsində də sözün, mətbuatın böyük xidmətləri olub. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra yaranan ciddi mətbu orqanlar da "Əkinçi" qəzetinin əqidə, amal, məfkurə davamçısı, müstəqil dövlətin söz kürsüsü oldu.

"Əkinçi" qəzetinin nəşrə başladığı gün Azərbaycanda milli mətbuatın yaranması günü - Milli Mətbuat Günü kimi tarixləşdi.

Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Azərbaycanda senzura ləğv edildi. Bu, azad sözün daha da inkişafı üçün gözəl şərait yaratdı...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycanda Mətbuat Şurası, Kütləvi İnformasiya vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı. Hər il qəzetlərin nəşrinə dövriyyəsindən asılı olaraq edilən dövlət yardımları qəzetin müntəzəm nəşr olunmasını təmin edir.

Azərbaycanda çağdaş jurnalistikanın inkişafında xidmətlərinə görə fərqlənən jurnalistlərə əməkdar jurnalist fəxri adı, "Tərəqqi" medalı verilir ki, bunlar da böyük mənəvi dəstəkdir, jurnalistikanın inkişafında gərəkli mənəvi stimuldur.

"Əkinçi" ilə başlayan milli mətbuatımız dövlətçiliyin dayağıdır.

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

Azərbaycanda milli mətbuatın tarixi "Əkinçi" qəzetinin nəşrə başlaması tarixidir. 1875-ci il iyul ayının 22-si bu səbəbdən Milli Mətbuat Günü kimi qeyd edilir.

Mən orta məktəbdə oxuyanda hələ internet inkişaf etməmişdi. İctimaiyyət kütləvi informasiya vasitəsi olaraq qəzetlərdə dərc edilən xəbərləri, məqalələri, reportajları oxuyurdu. Dövlətin daxili və xarici siyasəti ilə bağlı informasiyaları da qəzetlərdən oxuyurdu. Yəni, "Əkinçi" qəzetinin varisi kimi fəaliyyət göstərən qəzetlər cəmiyyətin bir parçasıydı və bu, ictimaiyyətin maariflənməsində, vətənpərvərlik duyğularının daha da inkişaf etdirilməsində müstəsna əhəmiyyətə malik idi.

"Əkinçi" qəzetinin naşiri Həsən bəy Zərdabi deyirdi: "...Bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də, ələl-xüsus da doğru söz...". Bu kəlam 145 il əvvəl deyilib. Ancaq bu gün də müasirdir. İctimaiyyət mətbuatda dərc edilənləri dürüst söz, doğru söz bilir, ona inanır. Çağdaş Azərbaycan mətbuatı bu inamın mətbuatıdır.

Ermənistanın Azərbaycandan ərazi iddiası, bu iddianın nəticəsi kimi başlayan müharibə haqqında, döyüşlər haqqında, qəhrəmanlıqlar, qəhrəmanlar haqqında, şəhidlik, şəhidlər haqqında dərc edilən publisistik məqalələriylə, ön xətdən reportajlarıyla, əsgərlərimizin döyüş əzmindən, qələbə ruhundan yazılan məqalələriylə "Azərbaycan Ordusu" ictimaiyyətin maraqla oxuduğu qəzetlərdəndir. İctimaiyyət Azərbaycanda ordu quruculuğu haqqında daha ətraflı məlumatları da, orduda həyata keçirilən irimiqyaslı islahatları da, genişmiqyaslı təlimlərin mahiyyətini də məhz bu qəzet vasitəsilə öyrənirdi. İctimaiyyət Azərbaycan əsgərinə indi də inanır, güvənir.

Ulu öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı mətbuatın dövlətçilikdə rolunu da artırdı, kütləvi informasiya vasitələrinin səmərəli fəaliyyəti sahəsində Dövlət Proqramının əsas istiqamətlərini də müəyyən etdi...

Milli Mətbuat Günü təkcə mətbuat işçilərinin peşə bayramı deyil, həm də milyonlarla oxucunun bayramıdır. Məktəblilər də, yeniyetmələr də, gənclər də, ümumən ictimaiyyət ciddi qəzetləri maraqla oxuyur, onların dürüst sözünü düşüncələrinə köçürürlər.

**Gülsurə HÜSEYNOVA,**
**Bakı şəhəri**

# Təlimlərə cəlb olunan qoşunlar daimi dislokasiya məntəqələrinə qaytarılır

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhəboyu zonada yerləşən hərbi birliklərin müxtəlif poliqonları və təlim mərkəzlərində keçirilən təlimlər yekunlaşıb.*



Təlimlər çərçivəsində döyüş tapşırıqlarını yerinə yetirən şəxsi heyət və zirehli texnika əməliyyat təyinatı rayonlarından daimi dislokasiya məntəqələrinə qaytarılır.

Qeyd edək ki, döyüş hazırlığı planına uyğun olaraq son günlər müxtəlif istiqamətlərdə aidiyyəti hərbi hissələrin cəlb olunması ilə gecə və gündüz vaxtı intensiv təlim və məşqlər keçirilib.

Müdafiə nazirinin tapşırığına əsasən, qoşunların döyüş qabiliyyətinin artırılması məqsədilə mütəmadi bu cür hərbi təlim və məşqlərin keçirilməsi planlaşdırılır.

# Əlahiddə Ümumqoşun Orduda keçirilən taktiki təlimlər davam edir

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Orduda keçirilən tabor, divizion döyüş atışlı və atışsız taktiki təlimləri davam edir. Taktiki təlimlərə motoatıcı və tank bölmələri ilə yanaşı, hərtərəfli təminatın təşkili üzrə digər bölmələr də cəlb edilib.

Təlimə cəlb edilmiş bölmələr "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb.

Tabor, divizion döyüş atışlı və atışsız təlimlərində əsas diqqət bölmələrin səhra vərdişlərinin yüksəldilməsinə, müasir ümumqoşun döyüşünün hazırlanıb aparılmasına və təlimdə iştirak edən digər qoşun növlərinin bölmələri ilə qarşılıqlı əlaqənin yaradılmasına yönəldilib.

Döyüş atışlı taktiki təlimlərdə bütün silah növlərinin, eləcə də tank və piyadanın döyüş maşınlarının atəşi ilə hədəflər məhv edilib.

Təlimlərdə döyüş şəraitinə maksimum yaxınlaşdırılmış vəziyyətdə bölmələrin döyüş uzlaşması aparılır.

Təlimə cəlb edilən şəxsi heyətin arxa təminatının təşkili məqsədi ilə tabor və divizionların maddi-texniki təminat məntəqələrinə vasitələrin çatdırılması təminedici birləşmə və hissələrin bölmələri tərəfindən icra edilib.

# “Hərbçilərin sosial problemlərinin həlli Ali Baş Komandanın qarşıya qoyduğu prioritet məsələlərdəndir”



*Azərbaycanda müasir ordu quruculuğu, bu prosesdə Azərbaycan standartlarının yaradılması və tətbiqinin uğurlu nəticələri, şəxsi heyətin təminatı məsələlərinin yüksək səviyyədə həll olunması, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin daim diqqətində olan məsələlərdəndir.*

Bunu AZƏRTAC-a açıqlamasında analitik Ehtiram Aşırlı deyib.

E.Aşırlı deyib ki, realist paradiqmaya görə bir dövlətin beynəlxalq münasibətlər sistemindəki yeri onun gücü ilə şərtlənir. “Tarixən dəyişməyən reallıqlardan biri də odur ki, ordu güc amilinin ən vacib həlqəsini təşkil edir. Beynəlxalq münasibətlərə dair əksər nəzəri konsepsiyalarda silahlı qüvvələr milli dövlətin müstəqilliyini və təhlükəsizliyini təmin edən başlıca faktor kimi təsbit olunub.”

"İyunun 25-də Prezident İlham Əliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında ordu quruculuğundan danışarkən bildirdi ki, bu gün Azərbaycan dünya miqyasında öz gücünə arxalanan və heç kimdən asılı olmayan ölkədir. Ancaq biz müharibə şəraitində yaşayırıq və eyni zamanda, görürük ki, bu gün dünyada, beynəlxalq müstəvidə güc amili ön plana çıxır. Beynəlxalq hüquq normaları kobudcasına pozulur, onlara əməl edilmir. Əfsuslar olsun ki, bu gün beynəlxalq münasibətlərdə "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir. Biz bunu görürük, müşahidə edirik və buna uyğun öz addımlarımızı atmalıyıq. Çünki biz real vəziyyətlə hesablaşmalıyıq. Beynəlxalq hüququn normalarının pozulması hər bir ölkəni öz hərbi potensialının gücləndirilməsinə vadar etməlidir və biz buna artıq çoxdan başlamışıq. Məhz bunun nəticəsində bu gün Azərbaycan Ordusu çox yüksək peşəkarlığa malikdir.

Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyevin beynəlxalq münasibətlər sistemini nəzəri və praktiki cəhətdən mükəmməl bilməsi Azərbaycan Respublikasının beynəlxalq və regional müstəvidə aparıcı ölkə halına gəlməsində müstəsna rol oynayır. Şübhəsiz ki, dövlətimizin başçısının siyasi, iqtisadi və hərbi bilik və bacarıqları sayəsində bu gün ölkəmiz beynəlxalq münasibətlər sistemində əsas aktorlardan biridir".

Analitik qeyd edib ki, son dövrlər Azərbaycan Ordusu düşmənin qurğu və infrastrukturlarını məhv edəcək yüksək dəqiqlik və dağıntı gücünə malik ən müasir silahlar, hərbi texnikalarla təchiz edilib. “Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olması qazanılan hərbi uğurların bariz nümunəsidir. Bu gün Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusuna xüsusi diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasında yer alır. Ordumuzun şəxsi heyətinin bilik və bacarığının, döyüş ruhunun yüksəldilməsi, hərbçilərin sosial problemlərinin həlli Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu əsas prioritet məsələlərdəndir.”



"Son olaraq qeyd etmək yerinə düşər ki, iyunun 25-də Prezident İlham Əliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında bildirib ki, "Biz isə hər sahədə, beynəlxalq müstəvidə güclənirik, güclənməliyik - ölkə daxilində sabitlik, iqtisadi sahədə islahatlar, sosial problemlərin həlli, regionların inkişafı və nəhayət ordu quruculuğu. Ona görə bu yolla biz gedəcəyik, ordumuzu bundan sonra da gücləndirəcəyik, nə qədər lazımdırsa, orduya o qədər vəsait ayıracağıq". Prezident İlham Əliyevin bu açıqlamaları bir daha onu göstərir ki, hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsində arxalana biləcəyimiz yeganə güc məhz Azərbaycan Ordusudur”, - deyə analitik E.Aşırlı vurğulayıb.

# Şəhid hərbçilərimiz dəfn edilib

*İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz istiqamətində hücuma keçməyə cəhd göstərib. Ordumuzun bölmələri bu cəhdin qarşısını qətiyyətlə alıb. Döyüşdə Azərbaycan Ordusunun zabiti baş leytenant Rəşad Rəşid oğlu Mahmudov şəhid olub. O, doğulduğu Biləsuvar rayonunun Aşağı Cürəli kəndində torpağa tapşırılıb.*



Dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri, döyüş yoldaşları, ictimaiyyətin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Şəhid Rəşad Mahmudov C.Naxçıvanski adına Hərbi Liseyi və H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra Tovuz rayonundakı "N" hərbi hissəsində xidmət edirdi.

* * *

İyulun 12-də Tovuz rayonu istiqamətində dövlət sərhəddində düşmənin hücumunun qarşısını alarkən şəhid olan əsgər Xəyyam Məhəmməd oğlu Daşdəmirov iyulun 13-də doğulduğu İsmayıllı rayonunun Balik kəndində dəfn edilib.

* * *

Tovuz rayonu istiqamətində döyüşdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Sadıqov Vüqar Lətif oğlu da şəhid olub.

Vüqar Lətif oğlu Sadıqov orta məktəbi bitirdikdən sonra əsgər kimi Azərbaycan Ordusunda xidmət edib, 2014-cü ildən etibarən xidmətini Azərbaycan Silahlı Qüvvələrində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirib. Üç azyaşlı övladı - iki qızı, bir oğlu vardı.

Dəfn mərasimində çıxış edənlər qüdrətli Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməyə qadir olduğunu bildiriblər.

Şəhid çavuş anadan olduğu Ağstafa rayonunun Yuxarı Göycəli kənd qəbiristanlığında torpağa tapşırılıb.

* * *

Tovuz rayonu istiqamətində düşmən hücumunun qarşısını alarkən şəhid olan baş əsgər Elşad Dönməz oğlu Məmmədov Tovuz rayonunun Ağdam kəndində dəfn olunub. Elşad döyüşlərin getdiyi Ağdam kəndində xüsusi izdihamla yola salınıb. Onun kənddə sayca 11-ci şəhid olduğu bildirilir. Dəfn mərasimində şəhidin ailə üzvləri, ziyalılar, sakinlər iştirak ediblər.

Şəhidin atası Dönməz Məmmədov, kənd sakinləri Pərgər Həsənov, İsa Əliyev Ali Baş Komandanın döyüş əmrinin qələbəylə tamamlanacağına əminliklərini bildiriblər.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***13 iyul 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, 60, 82 və 120 millimetrlik minaatanlardan və digər artilleriya qurğularından da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 70 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

***14 iyul 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, 60, 82 və 120 millimetrlik minaatanlardan və digər artilleriya qurğularından da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 74 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərində, Çəmbərək rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

AZƏRBAYCAN ORDUSU

## İrəvan xanlığı

İrəvan xanlığı XVIII əsrin ortalarında Nadir şah Əfşarın vəfatı və Əfşarlar dövlətinin süqutundan sonra Çuxursəəd bəylərbəyliyinin əsasında yaranmış və 1747-1828-ci illərdə mövcud olmuş tarixi Azərbaycan feodal dövlətlərindən - xanlıqlarından biri idi. İrəvan xanlığının əsası Mirmehdi xan Əfşar tərəfindən qoyulub. Xanlıq Qarabağ, Naxçıvan və Maku xanlıqları ilə, Osmanlı İmperiyası, Kartli-Kaxeti çarlığı, Borçalı, Qazax sultanlıqları ilə həmsərhəd olub. Mərkəzi İrəvan şəhəri idi.

Xanlığın mərkəzi iki hissədən: - Qala və Bayır şəhərdən ibarət idi. İkiqat hasarla əhatə olunmuş İrəvan qalası 1582-ci ildə çiy kərpicdən Zəngi çayının sol sahilindəki qayada inşa edilmişdi. Birinci divar ilə ikinci divar arasında dərin arx qazılmışdı. Müharibə vaxtı arx su ilə doldurulurdu. Bayır şəhər qaladan şimalda salınmışdı. XIX əsrin əvvəllərində İrəvan qalasında top və barıt istehsal edilirdi. Hazırda Ermənistan Respublikasının yerləşdiyi ərazi yaxın keçmişdə - XIX əsrin əvvəllərində Azərbaycan dövləti olan İrəvan xanlığının torpaqlarıdır. Bu torpaqların ən qədim yerli əhalisi - aborigen sahibləri Azərbaycan türkləri idi. İrəvan xanlığının yarandığı ərazi ən qədim türk torpaqlarıdır. Azərbaycan xalqının formalaşmasında yaxından iştirak etmiş hürrilər, kimmerlər, iskitlər, saklar, hunlar və digər çoxsaylı oğuz və qıpçaq türkləri məhz bu regionda, xüsusilə Göyçə gölü ətrafındakı torpaqlarda yaşamış və özlərindən sonra zəngin tarixi-mədəni iz qoymuşlar.

XIX əsrin əvvəlində baş vermiş Rusiya işğallarına qədər İrəvan xanlığı əhalisinin mütləq əksəriyyəti Azərbaycan türkləri idi. Qeyd etmək lazımdır ki, erməni katolikosluğu mərkəzinin 1441-ci ildə İrəvan (Çuxursəd) bölgəsinə köçürülməsinə qədər burada ermənilərə məxsus heç bir kənd və yaxud torpaq sahəsi olmayıb. Hətta erməni katolikosluğunun yerləşdiyi Üçkilsə (Valarşabad ) kəndi belə 1443-cü ildən başlayaraq ermənilər tərəfindən müxtəlif vasitələrlə hissə-hissə Azərbaycan türklərindən alınmışdı. Azərbaycan dövləti olan İrəvan xanlığını Azərbaycanın dövlət idarəçiliyi tarixində mühüm rol oynamış məşhur Qacarlar adlanan türk sülaləsindən olan xanlar idarə etmişlər. Xanlığın bütün idarəçilik sistemi, ictimai, siyasi, mədəni və təsərrüfat həyatı, burada yaşayan əhalinin məişət mədəniyyəti Azərbaycanın minillər boyunca davam etmiş ümumi tarixi inkişaf sisteminin ayrılmaz tərkib hissəsi idi.

İrəvan xanlığının ərazisində, tarix boyu, Azərbaycan xalqına məxsus çoxsaylı yaşayış məskənləri - kəndlər, şəhərlər salınmış, minlərlə tarixi abidələr qalalar, məscidlər, minarələr ucaldılmış, karvansaralar, hamamlar inşa olunmuşdu. Bölgədəki bütün yer adları - toponimlər Azərbaycan xalqına məxsus idi. Bu inkarolunmaz həqiqəti hətta erməni mənbələri də təsdiq edir. Xanlığın ərazisində saysız-hesabsız qədim oğuz-türk qəbiristanları və bu qəbiristanlarda Azərbaycan xalqına məxsus külli miqdarda qoç heykəlləri, qəbirüstü abidələr vardı. Bütün bunlar Azərbaycan xalqının maddi mədəniyyət möhürləri idi...

XIX əsrin əvvəllərində regionu ələ keçirməyə çalışan Rusiya imperiyası Azərbaycan xanlıqlarına qarşı müharibələrə başladı.

*Tarix olduğu kimi*

# Azərbaycan tarixi daha əhatəli öyrəniləcək




Osmanlı dövləti və Qacarlar İranı ilə sərhəddə yerləşən İrəvan xanlığının ələ keçirilməsi Rusiya imperiyasının işğalçılıq planlarının mühüm tərkib hissəsi idi. 1804-1813-cü illərdə Azərbaycan torpaqlarının işğalı uğrunda gedən birinci Rusiya-İran müharibəsi zamanı İrəvan xanlığı iki dəfə (2 iyul-3 sentyabr 1804-cü il; 3 oktyabr-30 noyabr 1808-ci il) Rusiya qoşunlarının güclü hücumlarına məruz qaldı. Lakin İrəvan xanlığı Rusiyaya təslim olmadı və öz müstəqilliyini qoruyub saxlaya bildi. Xanlığın əhalisi müdrik və cəsur dövlət xadimləri olan Məhəmməd Hüseyn xan Qacarın (1784-1805) və Hüseynqulu xan Qacarın (1806-1827) başçılığı ilə çar qoşunlarına qəhrəmanlıqla müqavimət göstərdi. Böyük itkilər verən Rusiya imperiyasının hakim dairələri İrəvan xanlığını ələ keçirmək üçün şirnikləndirici vasitələrə əl atdı. Rusiyanın Cənubi Qafqazdakı hərbi qüvvələrinin baş komandanı general Qudoviç İrəvan sərdarının qardaşı Həsən xan Qacara qalanı könüllü təslim edəcəyi halda onu sərbəst buraxaraq, İrəvan qalası və şəhəri istisna olmaqla, bütün xanlığın hakimi təyin olunacağına Rusiya imperatoru adından vəd verdi. Həsən xan Qacar Rusiya imperatoru adından verilən bu təklifi rədd etdi.

Çar Rusiyası Azərbaycan torpaqlarının işğalında ermənilərin köməyindən, erməni xəyanətindən dövlət səviyyəsində istifadə edirdi. Məsələn, çarın həmin dövrdə verilmiş bir fərmanına bununla bağlı ayrıca bənd daxil edilmişdi: "...Hər cür nəvazişlə erməniləri öz tərəfinizə çəkməyi xüsusi olaraq sizin ixtiyarınıza buraxıram". Bütün bunlara baxmayaraq, birinci Rusiya-İran müharibəsi zamanı Rusiya imperiyası İrəvan və Naxçıvan xanlıqlarını işğal edə bilmədi. Hər iki xanlığın yerli əhalisi olan Azərbaycan vətənpərvərləri doğma yurdun azadlığı uğrunda işğalçılara və onlara kömək edən ermənilərə qarşı qəhrəmanlıq mübarizəsi apararaq qələbə çaldılar. İrəvan xanlığını işğal etmək niyyətindən əl çəkməyən I Nikolay İrəvan və Sərdarabad qalalarını ələ keçirməyin hərbi-strateji əhəmiyyətini nəzərə alır, bunu tez-tez general Yermolova xatırladırdı. Rusiya imperatoru 1826-cı il oktyabrın 21-də Yermolova yazırdı: "Əgər İrəvanı ya silah gücünə, ya İrəvan Sərdarını pulla ələ almaq yolu ilə, ya da onunla gizli münasibətlər qurmaqla ələ keçirmək mümkündürsə, bu imkanı əldən verməyin". İkinci Rusiya-İran müharibəsi (1826-1828) zamanı İrəvan xanlığının işğalına xüsusi önəm verən çar I Nikolay (1825-1855) Yermolova göndərdiyi 1826-cı il 1 avqust tarixli fərmanında işğalçı generala xüsusi olaraq tapşırırdı: “Təcili olaraq İrəvan Sərdarı üzərinə yürüş edin. Tezliklə sizdən belə cavab gözləyirəm: "Allahın köməkliyi ilə Sərdar daha yoxdur və İrəvan vilayəti tamamilə tutulub". Siz və 15 min nəfərlik rus ordusu qələbə qazanmaq üçün kifayətdir.”

Azərbaycan vətənpərvərlərinə başçılıq edən İrəvan sərdarı Hüseynqulu xan Qacar, qardaşı "Aslanlar başı" titulunu daşıyan Həsən xan və onun nəvəsi Fətəli xan Qacar 1827-ci ildə Rusiya işğalçılarına qarşı İrəvanı (27 aprel 23 iyun; 24 sentyabr 1 oktyabr) və Sərdarabad qalasını (16-17 aprel; 14-20 sentyabr) dörd dəfə qəhrəmancasına müdafiə etdi. Çar generalı Benkendorfun Sərdarabad qalasını təslim etmək tələbini rədd edən Həsən xanın nəvəsi Fətəli xan Qacar işğalçılara sərt və birmənalı cavab verdi: "Qalanı təslim etməkdənsə onun dağıntıları altında ölməyim yaxşıdır". İrəvan qalasının qəhrəman müdafiəçisi Həsən xan Qacar son anda qalanı düşmənə təslim etməkdənsə partlatmaq məqsədilə barıt qülləsinə yanan fitil qoymuşdu. Lakin poruçik Lemyakin bunu vaxtında görmüş və əli ilə yanan fitili götürmüşdü. Lakin xəyanət öz işini gördü. Ermənilər İrəvan qalasını mühasirədə saxlayan Paskeviçlə əlaqəyə girdilər və azərbaycanlıların qalanın hansı hissəsində yerləşdikləri, top atəşlərini hara istiqamətləndirmək lazım olduğu barədə işğalçılara məlumat verdilər.

İşğalçı Rusiya qoşunlarının İrəvanda törətdikləri dağıntılar və şəhərə vurduqları zərərlə bağlı V.Potto bu hadisənin canlı şahidinin dediklərini olduğu kimi qələmə alaraq yazırdı: "Qalanın cənub-şərq küncünə çatarkən divar və bürclərin dağıntısı məni heyrətə saldı. Mənə elə gəlir ki, rus mühasirə artilleriyasının dörd gündə etdiyini çərxi-fələk dörd əsrdə belə edə bilməzdi".

Rusiya müstəmləkəçiləri İrana və Türkiyəyə qalib gəldikdən sonra Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, Cənubi Qafqazda Qacarlar İranı və Osmanlı imperiyasına qarşı gələcək işğalçılıq planlarını həyata keçirmək üçün xristian - istinadgah məntəqəsi yaratmaq məqsədilə həmin dövlətlərin ərazisində yaşayan ermənilərin kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına köçürdü...

Beləliklə, 1828-ci il fevralın 26-dan iyunun 11-dək, yəni, üç ay yarım ərzində İrandan Şimali Azərbaycana - İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə 8249 erməni ailəsi, başqa sözlə, ən azı 40 min nəfər erməni köçürüldü. Bundan bir az sonra Şimali Azərbaycan torpaqlarına Osmanlı dövləti ərazisindən daha 90 min nəfərdən artıq erməni köçürülüb gətirildi.

Ermənilər Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə, yəni, onlara daimi vətən yaratmaq niyyəti ilə köçürülürdü. Bu çirkin siyasətin həyata keçirilməsində Rusiya ordusunda xidmət edən erməni zabitləri fəal iştirak edirdilər. Erməni generalları öz məqsədlərini açıq bəyan etməkdən də çəkinmirdilər... Ermənilərin kütləvi surətdə köçürülüb gətirilməsinə baxmayaraq, çar hakimiyyət orqanları İrəvan xanlığı ərazisində demoqrafik vəziyyəti birdən-birə dəyişdirə bilmədi. İrəvan xanlığının işğalını həyata keçirmiş rus generalı Paskeviç, hətta ermənilərin köçürülüb gətirilməsindən sonra belə, İrəvan bölgəsi əhalisinin dörddə üç hissəsinin Azərbaycan türkləri olduğunu etiraf edirdi... Rusiya müstəmləkəçiləri, çox çəkmədən, Azərbaycan xalqının tarixi dövlətçilik ənənələrini və müstəqillik şüurunu məhv etmək üçün inzibati-ərazi islahatları keçirməyə başladı. 1828-ci il martın 21-də Azərbaycan xalqının Novruz bayramı günlərindən birində imperator I Nikolayın fərmanı ilə Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları ləğv edildi və bu xanlıqların ərazisində İran və Türkiyədən köçürülməkdə olan ermənilər üçün qondarma "Erməni vilayəti" yaradıldı.

Bununla Cənubi Qafqazdakı Azərbaycan torpaqlarında, daha doğrusu, İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq üçün ilk addım atıldı. Yeri gəlmişkən, 1828-ci ildə, özü də ermənilərin köçürülmə kampaniyası başa çatdırıldıqdan sonra "Erməni vilayəti"ndə olan 1125 kəndin 1111-də ancaq Azərbaycan türkləri yaşayırdı.

Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini və müstəqillik şüurunu məhv etmək üçün 1840-cı ildə daha bir addım atıldı: "Erməni vilayəti" ləğv edildi və onun ərazisində bir neçə qəza yaradıldı: İrəvan, Yeni Bayazid, Gümrü, Sürməli və s. 1849-cu ildə isə həmin Azərbaycan torpaqlarında yeni inzibati-ərazi vahidi - İrəvan quberniyası yaradıldı. İrəvan quberniyasının yaradılması, əslində, Qərbi Azərbaycan ərazisində ermənilər üçün dövlət yaradılması yolunda növbəti addım idi. Bundan sonra ermənilərin İran və Türkiyədən İrəvan quberniyası ərazisinə, həmçinin digər Azərbaycan torpaqlarına köçürülməsi prosesi daha da sürətləndirildi.

Hazırda keçmiş İrəvan xanlığının (indiki Ermənistan Respublikası) ərazisində yaşayan ermənilərin sələflərinin, demək olar ki, hamısı vaxtilə İrandan və Türkiyədən, son dövrlərdə isə digər xarici ölkələrdən əsasən Suriya, Yunanıstan, Livan, Bolqarıstan və Rumıniyadan köçüb gəlmə ermənilərdir. 1948-1950-ci illər deportasiyasından canını qurtarıb öz doğma yurd-yuvasını tərk etməyərək Ermənistan ərazisində qalan azərbaycanlılar isə 1988-ci ildə - Sovet İttifaqının dağılması ərəfəsində erməni silahlı birləşmələri tərəfindən kütləvi soyqırıma məruz qaldılar və tarixi torpaqlarından qovulub çıxarıldılar. Beləliklə, 1918-ci ildə Şimal Qərbi Azərbaycan torpağında keçmiş İrəvan xanlığının ərazisində özlərinə dövlət yaratmağa nail olan və burada etnik azlıq təşkil edən ermənilər bundan 70 il sonra - 1988-ci ildə Ermənistanı təketnoslu ölkəyə çevirdilər. Bununla 70 il əvvəl öz Vətənində - İrəvan xanlığı ərazisində ermənilərə dövlət yaratmaq üçün torpaq vermiş azərbaycanlılar minillərlə yaşadıqları Vətənlərindən məhrum oldular! Bunun ardınca Ermənistan silahlı qüvvələri Azərbaycanın dünya birliyi tərəfindən tanınmış sərhədlərini pozaraq ölkənin içərilərinə soxuldu.

Bu gün Ermənistan Respublikasının yerləşdiyi ərazi 180 il bundan əvvəl Azərbaycan torpağı idi. Bu torpağın aborigen əhalisi azərbaycanlılar idi.

**Hazırladı:**
**baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan dövləti veteranlara daim yüksək diqqət və qayğı göstərir

*Koronavirus (COVID-19) pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması məqsədilə ölkə rəhbərliyi tərəfindən reallaşdırılan genişmiqyaslı tədbirlər çərçivəsində 245 nəfər müharibə veteranına iyulun 4-dən etibarən ərzaq yardımları paylanılır. Aksiya Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri istefada olan general-polkovnik Tofiq Ağahüseynovun təşəbbüsü ilə həyata keçirilir.*



AZƏRTAC xəbər verir ki, aksiyanın məqsədi koronavirusun yayıldığı dövrdə yaşayışında çətinlik yaranan və ehtiyacı olan qocaman veteranlara dəstək göstərməkdir.

Təşkilatın sədri T.Ağahüseynov "Evdə qal, həyatları xilas et!" çağırışı ilə müraciət edərək veteranları, əhalini vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət olunmasını tövsiyə edir. Veteranlara müraciətdə bildirilib ki, Prezident İlham Əliyev hər bir veteranın Vətən qarşısındakı xidmətlərini daim yüksək qiymətləndirir. Onun köməyi və dəstəyi ilə veteranlar bu çətin dövrü də arxada qoyacaqlar. Veteranlar özlərini və yaxınlarını qorumalıdırlar. Koronavirus pandemiyasının bütün dünyanı bürüdüyü bir vaxtda dövlətimizin başçısı tərəfindən atılmış qabaqlayıcı addımlar nəticəsində ölkəmiz bu bəladan cüzi itkilərlə çıxmaq üzrədir. Yaddan çıxarılmamalıdır ki, veteranlar bundan da çətin sınaqlardan qalib çıxıblar.

T.Ağahüseynov bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Respublika Veteranlar Təşkilatına, ölkəmizdə veteran hərəkatının inkişafına, ümumiyyətlə, veteranlarımıza xüsusi diqqət və qayğı göstərir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyevin ənənəsinə sadiq qalan dövlətimizin başçısı hər zaman 9 May - Qələbə Gününü veteranlarla birlikdə qeyd edir, onların qayğıları ilə maraqlanır.

"Veteranlarımızın gənc nəslin düzgün istiqamətləndirilməsində rolu əvəzsizdir. Onlar nümunəvi şərəfli yol və həyat təcrübəsini gənclərlə bölüşür və tövsiyələrini verirlər. Veteranların bundan sonra da onlara göstərilən bu etimadı doğruldacağına əminəm. Biz gənclərin hərbi vətənpərvərlik və dövlətə sədaqət ruhunda tərbiyəsi üçün əlimizdən gələni bundan sonra əsirgəməyəcəyik", - deyə təşkilatın sədri vurğulayıb.

Qeyd edək ki, aksiya çərçivəsində Respublika Veteranlar Təşkilatının gənclərin hərbi vətənpərvərlik şöbəsinin mütəxəssisi İsmayıl İsmayılov və təşkilatın mətbuat xidmətinin əməkdaşı Şəhla Qarayeva, müvafiq rayon icra hakimiyyətlərinin və rayon veteranlar təşkilatlarının nümayəndələrinin iştirakı ilə Gəncə, Daşkəsən, Gədəbəy, Göygöl, Şəmkir, Şamaxı, Ağsu, Qobustan, İsmayıllı, Qəbələ, Şəki, Göyçay, Ağdaş, Balakən, Zaqatala və Goranboyda yaşayan İkinci Dünya müharibəsi veteranlarına ərzaq yardımları artıq paylanılıb. Veteranlarla hər görüşdə təşkilatın nümayəndələri ölkəmizdə tətbiq olunan xüsusi karantin rejiminə ciddi əməl edilməsi, zərurət yaranmadan digər şəxslərlə təmas qurulmaması və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq şəxsi gigiyenik qaydalara riayət edilməsinin vacibliyini vurğulayırlar.

Yardım aksiyası iyulun sonunadək davam edəcək.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş Madagiz yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin 33651 saylı hərbi hissəsinin batareya komandiri əsgərlər tərəfindən vəhşicəsinə döyülüb.

Tank əleyhinə batareya komandiri Valeri Hayrapetyan gecə vaxtı əsgərlər tərəfindən yataqxananın dəhlizində döyülüb. Məlum olub ki, onun təhqirlərindən və söyüşlərindən təngə gələn əsgərlər toplaşaraq komandiri "cəzalandırmaq" barədə qərar qəbul ediblər. Baş nahiyəsindən, üz-gözündən zərbələr nəticəsində xəsarətlər alan zabit V.Hayrapetyan bir daha "cəzalandırılacağından" qorxduğu üçün izahatında onu kimlərin vurduğunu görmədiyini və heç kimdən şikayətçi olmadığını bildirib. Əsgərlər arasında söz gəzir ki, zabit şikayətçi olacağı təqdirdə öldürüləcəyi barədə xəbərdarlıq alıb.

Zabit şikayət etmədiyi üçün komandanlıq faktı ört-basdır edib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində yemək üstündə dava düşüb.

5-ci dağ atıcı alayının əsgəri Arman Hovanesyan tərxis olunmağa hazırlaşan əsgərlər tərəfindən nizamnamədənkənar münasibət nəticəsində döyülüb. Alınan izahatlardan məlum olub ki, tərxis olunmağa hazırlaşan əsgərlər yeməkxanada A.Hovanesyanın yemək yeməsinə mane olduqları üçün tərəflər arasında dava düşüb. Nəticədə bir neçə əsgər tərəfindən döyülərək müxtəlif bədən xəsarətləri alan gənc əsgər hərbi hospitala göndərilib.

Faktla bağlı açılan cinayət işi üzrə hərbi polisin apardığı araşdırma davam edir.

* * *

İşğal edilmiş Qetavan yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində və bütövlükdə yaşayış məntəqəsində koronavirusa kütləvi yoluxma faktı qeydə alınıb.

Kütləvi yoluxma halı ilə əlaqədar Qetavan yaşayış məntəqəsinin giriş-çıxışı bağlanıb. Yaşayış məntəqəsinin karantinə alınmasına əsas səbəb isə sahə həkimi Hovik adlı şəxsin koronavirusa yoluxaraq ailə üzvləri ilə birlikdə kənd camaatını da infeksiyaya yoluxdurmasıdır.

Həkim bu faktı gizlətdiyi üçün yanına gəlib-gedən xəstələrin, bir sözlə, kənd camaatının da infeksiyaya yoluxmasına səbəb olub.

Eyni zamanda, məlum olub ki, kənd həkimi Hoviklə ünsiyyətdə olan Qetavan hospitalının tibb bacısı Marina Qriqoryan da koronavirusa yoluxub.

Belə olan təqdirdə virusun yayılması domino effekti yaradıb və tibb bacısı M.Qriqoryanla ünsiyyətdə olan hospitalın sanitarları Ruzanna Xacaturyan, Stella Hovanisyan və Yelena Sağyanın da COVID-19-a yoluxduğu faktı ortaya çıxıb.

Hadisə ilə bağlı bütün hospitalın əməkdaşları və burada müalicə olunanlar karantinə alınıb, hospitala xəstə qəbulu dayandırılıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən zabitlər arasında kütləvi dava düşüb.

İşğalçı ordunun Madagizdə olan alayının zabitləri kapitan Armen Hayrapetyan, kapitan Erik Hayrapetyan, leytenant Armen Vartanyan və hələlik adları gizlədilən daha bir neçə zabit karantin rejimini pozaraq hərbi hissədən kənarda bir mülki sakinin evində keyf məclisinə toplaşıblar.

Lakin sonradan spirtli içkinin təsirində aralarında baş verən mübahisə davaya keçib. Rabitə bölüyünün zabiti leytenant A.Vartanyan izahatında kapitanlar A.Hayrapetyan, E.Hayrapetyan və digər tanımadığı zabitlər tərəfindən döyüldüyünü bildirib. Rabitəçi zabit tibb məntəqəsinə yerləşdirilib.

Faktla bağlı cinayət işi açılıb, istintaq aparılır, hadisədə digər zabitlərin də iştirakı araşdırılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il iyulun 1-dək 111 milyon 958 min 386,11 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 566 avro və 5000 rubl vəsait yığılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

*Hərbi texnikalar, silahlar*

# TRG-300 Kaplan raketi



TRG-300 Kaplan raketi Türkiyənin "ROKETSAN" şirkəti tərəfindən istehsal olunub. Raket bütün sınaqlardan uğurla keçərək 2017-ci ilin əvvəlində Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil edilib. TRG-300 Kaplan raketi çox güclü dağıdıcı qüvvəyə və dəqiq tuşlanma qabiliyyətinə malikdir. 30-120 kilometrlik məsafəyə qədər olan hədəfləri məhv edə bilər. TRG-300 Kaplan raketi GPS naviqasiya bloku ilə təchiz edilib. TRG-300 Kaplan raketi yüksək dəqiqliklə düşmən toplarını, artilleriyasını, rabitə və yol qovşaqlarını, möhkəm qorunan obyektləri və ağır zirehli texnikaları məhv etməyə qadirdir. Kompozit qatıyanacaqlı Kaplan raketinin çəkisi 585 kiloqram, döyüş başlığının çəkisi 105 kiloqramdır. Raketin təsiretmə radiusu 70 metrə qədər, hədəfdən yayınması 50 metrdir.



TRG-300 Kaplan raketinin əsas üstün cəhətlərindən biri də ilkin hazırlıq keçmədən atəş açmağa hazır vəziyyətdə olması və təsiredici zərbə vurmağa qadir olmasıdır. Onun döyüş başlığı polad və qəlpə-fuqaslıdır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Videokonfransda şəhid komandir Raquf Orucovun döyüş yolu xatırlanıb



"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Aprel döyüşlərində şəhid olan polkovnik-leytenant Raquf Orucovun doğum günü münasibətilə videokonfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, videokonfransda şəhid ailələrinin nümayəndələri, Qarabağ müharibəsi iştirakçıları, ziyalılar, tələbələr və məktəblilər iştirak ediblər.

Videokonfransda şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Orucova cəsur kəşfiyyat komandirinin keçdiyi həyat və döyüş yolunun gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində müsbət nümunə kimi dəyərləndirərək həyata keçirilən layihələr barədə məlumat verib, onunla əlaqədar bəzi xatirələrini danışıb.

Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxışında qeyd edib ki, yeniyetmə və gənclər qəhrəmanlarımızı daha yaxından tanımalı, onların döyüş yolunu öyrənməli və torpaqlarımızın azadlığı naminə hər zaman mübarizəyə hazır olmalıdırlar. Raquf Orucov kimi qəhrəmanlar onlar üçün ən yaxşı örnəkdir.



Gənclər və məktəblilər şəhidlər və qəhrəmanlar haqqında hazırladıqları kompozisiyanı təqdim ediblər.

Videokonfransda çıxış edən Qarabağ döyüşçüləri Səyyaf Əhmədov, Rey Kərimoğlu, Əhliyət Mehdiyev və Rasim Fərşidov şəhid komandir Raquf Orucovun döyüş yolu və hərbi uğurlarından danışıblar.

# Qoşulmama Hərəkatının İşçi Qrupunun ilk onlayn görüşü keçirilib

Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizə üzrə İşçi Qrupunun ilk onlayn görüşü keçirilib. Görüşdə Qoşulmama Hərəkatına üzv olan bir çox dövlətin nümayəndələri, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının çoxtərəfli məsələlər üzrə Baş direktoru xanım Mişel Bokkoz və qurumun Əməliyyatlar və Təchizat məsələləri bölməsinin rəhbəri Paul Molinaro iştirak ediblər.

Sözügedən İşçi Qrup Azərbaycan Respublikasının Prezidenti və Qoşulmama Hərəkatının hazırkı sədri İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də keçirilmiş Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının COVID-19 pandemiyasına qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşü formatında videokonfransının Bəyannaməsinin müvafiq bəndinə əsasən təsis edilmiş və Qrupa Qoşulmama Hərəkatı üzv dövlətlərinin pandemiyaya qarşı mübarizədə əsas tibbi, sosial və humanitar ehtiyaclarının əks olunacağı vahid məlumat bazasının hazırlanması tapşırılmışdır.

Görüş zamanı İşçi Qrupun sədri qismində Azərbaycan nümayəndə heyəti tərəfindən Təmas Qrupunun Zirvə Görüşündən ötən müddət ərzində İşçi Qrupun formalaşdırılması və QH üzv dövlətlərinin ehtiyacları ilə bağlı məlumat bazasının hazırlanması istiqamətində görülmüş işlər barədə məlumat verilib və hazırlanmış məlumat bazası iştirakçılara nümayiş etdirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı nəşr olunub

*Azərbaycan Prezidenti İlham Əliyevin tarixi faktlara, sənədlərə istinadən beynəlxalq tribunalardan səsləndirdiyi Azərbaycan həqiqətləri ermənilərin əsrlər boyu yaydıqları tarixi yalanları hər gün bir az daha artıq ifşa etməkdədir. Bu həqiqətlər sırasında son iki əsrdə Cənubi Qafqazda yeridilən erməniləşdirmə siyasəti nəticəsində bölgəyə və bölgə xalqlarına gətirilən çoxlu bəlalar, münaqişə, müharibə, deportasiya və soyqırımları xüsusi yer tutur.*




1918-ci ildə Azərbaycan torpaqları hesabına Ararat Respublikası adı ilə tarixdə ilk dövlətlərini yaratmaq fürsəti əldə edən ermənilər dərhal öz əsl simalarını ortaya qoydular və onlara bu fürsəti verən region xalqlarına, ilk növbədə, ərazinin yerli sakinləri olan azərbaycanlılara qarşı kütləvi soyqırımı həyata keçirməyə, dinc əhalini qəddarlıqla və kütləvi şəkildə məhv etməyə başladılar. Sonra tarixi mənbələr saxtalaşdırıldı, bu ərazilərdə nə varsa, hamısı mənimsənildi, abidələrimiz, toponimlərimiz erməniləşdirildi.

2020-ci il iyunun 3-də Azərbaycan Prezidenti İlham Əliyev Tərtər Rayon Olimpiya İdman Kompleksinin açılışındakı çıxışında alimlərimizin diqqətini bir daha bu məsələlərə cəlb etdi: "İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin, demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm, bizim alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün", - deyərək alimlərimizə çağırış etdi.

Yeni Azərbaycan Partiyasından (YAP) AZƏRTAC-a bildiriblər ki, bu çağırışa cavab olaraq YAP-ın layihəsi kimi bu günlərdə "Elm və təhsil" nəşriyyatında tədqiqatçı alim, Milli Məclisin deputatı Əziz Ələkbərlinin "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı nəşr olunub. Kitabda Azərbaycanın tarixi torpaqları olan Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində ermənilər tərəfindən adı dəyişdirilmiş 953 toponimin - oykonim, oronim və hidronimin siyahısı verilib. Bu toponimlər Ermənistan SSR-in soydaşlarımızın sonuncu (1988-ci il) deportasiyasına qədərki inzibati bölgüsü - rayonları üzrə qruplaşdırılıb, Qafqaz Hərbi Dairəsinin 1903-cü il hərbi-topoqrafik xəritəsindən hər rayona uyğun görüntülər verilib.

Kitabda daxil edilmiş toponimlər hər bir toponimin "köhnə adı", "yeni adı" və "dəyişdirilmə tarixi" (bu dəyişdirilmə ilə bağlı Ermənistan SSR Ali Soveti Fərmanının tarixi) xanaları üzrə qruplaşdırılıb. Bu özü də toponimlərimizin soyqırımının Ermənistanda dövlət səviyyəsində həyata keçirilməsinin əyani sübutudur.

Kitabda Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində Azərbaycan toponimlərinin ermənilər tərəfindən dəyişdirilmə prinsiplərinə də xüsusi diqqət yetirilib. Müəllif belə prinsiplərdən on birini müəyyən edib və konkret nümunələrlə fikrini əsaslandırıb.

Kitab geniş oxucu kütləsi və mütəxəssislər üçün nəzərdə tutulub.

# Xəbərlər: hadisələr, faktlar

## Əfqanıstanda silahlılar güc strukturlarının yeddi əməkdaşını öldürüb



Əfqanıstanda "Taliban" hərəkatının hücumu nəticəsində güc strukturlarının azı yeddi əməkdaşı həlak olub, iki əsgər isə yaralanıb.

Hadisə Əfqanıstanın Bədəxşan əyalətində baş verib. Yerli hakimiyyət orqanlarının məlumatına görə, nəzarət-buraxılış məntəqəsinə hücum edən silahlılardan beşi öldürülüb.

İnsident "Taliban" silahlılarının Qunduz əyalətində altı polis əməkdaşının həlak olması ilə nəticələnən hücumu ilə üst-üstə düşüb.

Qeyd edək ki, Əfqanıstanda sülh prosesinin başlamasına baxmayaraq, "Taliban" hərəkatı ilə hökumət qüvvələri arasında qarşıdurma davam edir. Fevral ayının sonlarında Qətərdə ABŞ və "Taliban" hərəkatı 18 ildən çox davam edən müharibə ərzində ilk sülh sazişi imzalayıb. Sülh sazişi 14 ay ərzində xarici qüvvələrin ölkədən çıxarılmasını və tərəflər arasında dialoqun başlamasını nəzərdə tutur.

## Türkiyə ordusunun hərbçisi İraqın şimalında şəhid olub




Türkiyə Silahlı Qüvvələrinin İraqın şimalında keçirdiyi "Pençe-Kaplan" antiterror əməliyyatı zamanı terrorçularla hərbçilər arasında atışma olub.

Atışmada Türkiyə ordusunun bir hərbçisi şəhid olub, üç terrorçu məhv edilib.

Şəhid hərbçi Samsunda anadan olan piyada qoşunlarında xidmət göstərmiş çavuş Ethəm Dəmircidir.

## Rusiyada "An-2" təyyarəsinin qəzaya uğraması nəticəsində bir nəfər həlak olub



Rusiyanın Nijni Novqorod vilayətində "An-2" təyyarəsinin qəzaya uğraması nəticəsində 1 nəfər həlak olub.

Hadisə səhərə yaxın baş verib. Təyyarə Kistenevo yaşayış məntəqəsi yaxınlığında yerə düşüb və yanıb. Nəticədə bir nəfər həlak olub, bir nəfər yaralanıb.

Faktla bağlı araşdırma aparılır.

## Çində neft emalı zavodunda güclü yanğın baş verib



Çinin Fucien vilayətində neft emalı zavodunda baş verən güclü yanğın nəticəsində 2 nəfər itkin düşüb, 2 nəfər yaralanıb.

Hadisə iyulun 12-də yerli vaxtla saat 10:10-da Lonyan şəhərinin Tieşan qəsəbəsindəki baş verib. Özəl şirkətlərdən birinə məxsus zavodda baş verən yanğına əlaqədar ətraf ərazidə yaşayan bütün sakinlər təcili təxliyə edilib. Yanğının söndürülməsinə vilayətin müxtəlif şəhərlərindən yüzlərlə yanğınsöndürən cəlb olunub. Hazırda yanğınsöndürmə əməliyyatı davam edir. Yaralı vəziyyətdə tapılan iki nəfərdən birinin vəziyyəti ağırdır.

İlkin ehtimala əsasən, hadisə zavodun sexlərindən birində təmir işləri aparılarkən baş verib.

**AZƏRTAC-ın materialları əsasında**

Polkovnik-leytenant Bünyat-Zadə Vüqar Əziz oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 432
Nüsxə 3960